Dilqəm
ƏHMƏD

# Əhməd bəyin qızı Londonda

## "Türk qadınlarının vəziyyəti ilə bağlı suallar verdilər"



***Ötən yazılarımızın birində Əhməd bəy Ağaoğlunun qızı Tezer Taşkıranın Moskva və Daşkənd səyahətləri barədə məlumat vermişdik. Budəfəki yazımızda Qarsın ozamankı millət vəkili Tezer xanımın London səfərindən qayıtdıqdan sonra "Ulus" qəzetinə verdiyi müsahibədən bəhs edəcəyik. Türkiyənin aktiv qadınlarından olan Tezer xanımın bu fəaliyyətləri Ağaoğlu ailəsinin qardaş ölkənin tarixində oynadığı rolun göstəricilərindən biridir. 1946-cı ilin sentyabr-oktyabr aylarında baş tutan bu səfərində Taşkıran Londonda iki mühazirə oxuyub, oranın tanınmış qadın ictimai-siyasi xadimləri ilə tanış olub.***

Tezer xanım müsahibəsinə bu cümlələrlə başlayıb:

"İngilis Mədəniyyət Heyətinin müsafiri olaraq İngiltərəni ziyarət etdim və dörd həftə qaldım. Bu əsnada Londondan başqa Birminqem və Kembriç şəhərlərini gördüm. İngiltərədə təmas qurduğum böyük şəxsiyyətlərdən, ziyarət etdiyim bütün müəssisələrdən gördüyüm rəftar və qonaqpərvərliyə görə təşəkkür edirəm. Məsləyim və şəxsi görüşlərim səbəbindən məni ən çox maraqlandıran müxtəlif məktəbləri, uşaq məhkəmələrini, uşaq himayə müəssisələrini, qadın və ixtiyarlara xidmət edən sosial yardım dərnəklərini ziyarət etdim. Əsas etibarilə bir qisim cəmiyyətlər dövlət tərəfindən qurulub idarə edilməkdədir. Bu müəssisələrdə diqqətli və məhsuldar bir çalışmaya şahid oldum. Deyilə bilər ki, İngiltərədə bu kimi işlərin hamısında dövlət və cəmiyyətlər əl-ələ verərək fəaliyyət göstərməkdədirlər. Hətta tarixi baxımından bir çox işlərdə cəmiyyətlər dövlətdən öncə işə başlamışdır.

**- İngiltərədə sizə ən çox soruşulan sual nə idi?**

İngiltərədə bir qadın müsafir olduğum üçün daha çox türk qadınlarının vəziyyəti ilə bağlı suallar verdilər. Məmləkətimizdə qadınların kişilərlə bərabər haqlara sahib olduğunu öyrənmək bir çox ingilisdə böyük maraq oyandırdı. İstəyə uyğun olaraq Londonda Fəhlə Partiyasında, ali təhsilli gənc qızlara məxsus iki müəssisədə Türkiyədə qadın mövzusunda etdiyim mühazirələrdə ölkəmizin qadınları barədə fikir yaratmağa çalışdım. Göstərilən maraqdan çıxışlarımın faydalı olduğunu ümid edirəm.

**- Müharibə dövründə və hazırda İngiltərə qadınlarını sosial və siyasi sahədə çalışmalarını necə hesab edirsiniz?**

İngiltərədə müharibə illərində qadınlar hər sahədə çox geniş fədakarlıqlar etmişlər və ingilis millətinin müvəffəqiyyətinə böyük xidmət göstərmişlər. Hələ də xeyriyyə qurumlarında qadınların rolu olduqca önəmlidir. İcmalar Palatasında 21 millət vəkili qadın vardır. Onun 19-u Fəhlə Partiyası, biri Mühafizəkar, digəri də Liberal Partiya mənsubudur. Önəmli işlərdə bacarıqla çalışan qadınlar görülməkdədir. Tanış olmaq şərəfinə nail olduğum xanım Villkinson, səhiyyə məsələləri üzrə siyasi müşavir Dr. Sammerskid, qadın və elektrik mövzusu üzərində illərlə çalışmış xanım Haslet, Fəhlə Partiyası London təşkilatçısı xanım Bonn bunlara nümunədir.

**- İngiltərədə müharibənin zərərlərini necə gördünüz?**

İngiltərədə müharibədən qalan dağıntı böyükdür. Bir çox ev yaşanmayacaq bir haldadır. Məktəb binaları, xəstəxanalar, muzeylər və bənzər müəssisələrdə də bombardmanlar önəmli zərər vurmuşdur. Ancaq qısa bir zamanda bütün bu müşküllərin yenilməsi üçün böyük qeyrət göstərilməkdədir.

**- Amerika Millətlərarası Qadınlar Qurultayında iştirak etdinizmi?**

12 oktyabrda Nyu-Yorkda toplanan bu qurultaya dəvət edilsəm də, təyyarəyə vaxtında yer tapa bilmədiyim üçün iştirak edə bilmədim. Dəvətli olan iki türk nümayəndə və digər Avropa dövlətlərindən bəzilərinin nümayəndələri də eyni səbəbdən bu toplantıda iştirak edə bilmədilər.